**Leyla NAZLI**



# Bir gün şeir yazsanız...

*Şair olmaq özünü misralarında əbədi dəfn etməkdir...*

*Şairlər xoşbəxt olmur. Niyəsini soruşmayın, bəlkə, ilham pəriləri dərdə aşiqdilər. Bəlkə, şairlərin kədəridir onları yaşadan. Kim bilir, bəlkə, bir vaxtlar şairdi deyə, qanadlarını qırıblar ilham pərilərinin. Onlar da yerlə göyün arasında pərvanətək şairlərin başına dolanırlar, sınıq könüllərini alırlar ki, qanadları qırılmasın. Şairlər xoşbəxt olmur. Bədbəxtlikləri bahasına şeir yazan şair xoşbəxt ola bilərmi? Bir günün xoşbəxtliyini bir misraya, bir ayın sevincini bir beytə, bir ilin çırpıntılarını bir bəndə, bir ömrü bir şeirə qurban verməyin başqa adı, bilirsiniz, nədir?*

*Heç kim şeir yazmasın, heç kim! Bir gün şeir yazsanız...*

## QUM ADAM VƏ DƏNİZ

Hər dəfə kefi pozulanda dənizin sahilinə gəlib soyuq qumun üstündə oturar, ovcuna qumqarışıq balıqqulaqlarını yığıb gözü işlədikcə uzağa – səmayla dənizin qovuşduğu yerə baxardı. İlk dəqiqələr heç nə fikirləşməzdi. Kənardan baxanda torpaq rəngli dərisiylə qumdan düzəldilmiş heykələ oxşayardı. Allah saxlamış gözünü də qırpmazdı. Sonra fikirləri "bu qədər dinclik bəsdi" – deyib doluşardı beyninə. Həmin dəqiqədən başlayardı Dənizlə danışmağa. Tanıyıb bilənlər "dəlidir" – deyib keçərdilər yanından. Yoxsa elə bilirsiz, ona dəli deyənlər heç həmsöhbət olmamışdı dənizlə?

Az qala yadımdan çıxmışdı, qum adama oxşayan qəhrəmanımın bir də lap köhnə, vərəqlərinin ucu didilmiş, üz qabığı cırılmış gündəliyi vardı. Arada ürəyindən keçən cümlələri ora yazar, sonra da dənizə oxuyardı. Bu dəfə gündəliyinə belə bir cümlə yazdı: "Sevməklə sevməmək arasında qalmaq".

Başını yüngülcə silkələyib düşündü:

– Gözəlim, tək sirdaşım, səni sevib-sevmədiyimi bilmirəm ki. Sənə baxdıqca ruhumu dincəldirsən, ruhumu dincəldəni necə sevməyim ki? Səsli-küylü dünyadan alıb aparırsan məni uzaqlara, xəyallarım dalğalarına qarışıb gah suyun dibinə baş vurur, gah göyün üzünə çıxır. Düzü, mən tək bunları bacarmazdım. Xəyallarıma nə vaxt üzməyi öyrətdiyindən də xəbərsizəm. Bax, sevməyə səbəbim çoxdu, amma sevməməyə bircə səbəbim var: qoynunda bir dünya yaşadırsan, necə qıyırsan günahsız insanlara?

Bir an duruxdu, "günahsız insan" sözünə özü də inanmadı. Ağlında sualları ard-ar-

da düzdü: “Niyə qucaq açırsan qapına gələnə, sonsuzluğu səndə tapmaq istəyənlərə? Niyə bir şans vermirsən geri dönməyə? Yalnız bir şans...”

Fikirlərindən ayrılıb yuxudan qəfil duran adam kimi diksindi: «Özünə gəl, nə fikirləşirsən?» Yaxşı ki, dəniz eşitmədi ürəyindən keçənləri, yoxsa tək sirdaşını da küsdürərdi .

Hə, mənim sadəlövh qəhrəmanım unutmuşdu bir şeyi. Ovcundakı balıqqulağılar ürəyini oxuyub çoxdan xəbər aparmışdılar Dənizə. Sükutu pozdu gözlənilmədən:

– Ay dəniz, bir söz soruşum səndən. Dalğalarının gücümü çatmadı, ya suyunmu yetmədi bu dünyanın çirkabın yuyub aparmağa?

Nə oldu, bilirsiz? Cavab gəldi dənizdən. Hə, hə, cavab gəldi:

– Bu dünyanın çirkabını yumağa gücüm yetməz, amma təmizlərin saflığını qorumağa çalışıram hərdən. Bu həyatda qalıb çirklənməsinlər deyə, aparıram özümlə.

Sözlərini bitirib ləpələrdən yaranmış əlini ona uzatdı Dəniz...



# AĞ VƏ QARA

O cəmi iki rəng tanıyırdı: ağ və qara. Cəmi ikicə söz bilirdi: ağ və qara. Çünki bunlardan başqa söz bilmirdi. Onun dünyası ağ və qaradan ibarət idi. Amma buna görə kefini pozmurdu, onun dünyası iki rəngdən qurulmuşdu. Bilmədiyi, tanımadığı, görmədiyi rənglər üçün niyə darıxsın ki? Beləcə, öz aləmində iki rəngin, iki sözün arasında yaşayırdı həyatını.

Günlərin bir günü bir Adam çıxdı qarşısına. Elə bil illərdi tanıyırmış kimi salamsız-kəlamsız "Səni bu solğun, cansıxıcı həyatından xilas edərəm, sev məni, inan mənə!" – dedi. O, sadəcə, Adamın gülümsəməsinə baxdı, baxdı, onun kimi özünün də gözləri qıyıldı, dodağı qaçdı, üzündə ilk dəfə gülüş oynadı. Səbəbini anlamadan bu gülüşə inanaraq ona uzadılan əli tutdu. Adam sanki təzə gəlmişdi dünyaya, bir-bir rəngləri başa salırdı ona, hər rənglə tanış etdikcə həyatına qatırdı birini. Dünyası rəngarəng bir çəmənə çevrildi. Elə xoşbəxt idi ki, artıq bütün rəngləri tanıyırdı. Adam onun ürəyinə qırmızı, günəşinə sarı, səmasına mavi, gözlərinə qəhvəyi çalarlar vermişdi. Amma ən gözəli saçlarıydı. Adam Onun saçlarına sübh çağı səmada  olan rənglərin sayı qədər çalar vermişdi. Elə gözəl idi ki...

Sən demə, xoşbəxtliyi dadıb itirmək, heç yaşamamaqdan daha betərmiş. O öz-özünə "Görəsən, dünyada məndən xoşbəxt adam varmı?" – deyə fikirləşdiyi bir vaxtda adam yol çantasına bir-bir rəngləri yığmaqdaydı. Onun dünyasına qatdığı bütün rəngləri səliqə ilə yığdıqdan sonra yerdə iki rəng qalmışdı: ağ və qara. Bir az fikirləşəndən sonra onları da götürüb çantasının başqa gözünə qoydu. İki rənglə bir şey olmazmış, demə.

Kiməsə çoxluq içində heç görünən digərinə yoxluq içində həyat olar. Həyatındakı gözəllikləri düşünərək yuxuya getdi. O, ayılanda bir anlıq dondu. Bu nə idi belə? Heç nə yox idi ətrafda, özünü belə görə bilmirdi. Hər şey, özü belə şəffaf idi. Əvvəl heç nə anlamadı, ta ki yağışın əvvəl səsini, sonra görünməz bədənini islatdığın hiss edənə qədər. Yağış pıçıldadı elə bil hər şeyi qulağına. Başa düşdü ki, dünyasını rəngləndirən Adam elə dünyasını da götürüb  gedib. Hiss eləmədi heç nə. Nə inciklik, nə küskünlük, nə ağrı, nə nifrət, nə də peşmanlıq. Həmin anlar zaman donmuşdu. Başını qaldırıb bir vaxtlar rənginə vurulduğu səmaya baxdı, gülməyi öyrəndiyi Adamı yadına salıb gülümsədi...

